**“2025-ci ildə sosial-iqtisadi inkişafının yekunları və 2026-cı ildə qarşıda duran vəzifələr haqqında” Yevlax Şəhər İcra Hakimiyyəti başçısının**

# HESABATI

## SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏR

- Yevlax rayonu 05 fevral 1935-ci ildə təşkil olunmuşdur. Rayonun sərhəd daxili sahəsi 1465,4 kv.km-dir. Ərazi vahidlərinin sayı 50. O cümlədən: 1 şəhər, 3 qəsəbə, 46 kənd. İnzibati ərazi dairələrinin sayı 21. O cümlədən: 1 sahə inzibati ərazi dairəsi, 1 qəsəbə inzibati ərazi dairəsi, 1 qaçqın və köçkünlərin məskunlaşdığı düşərgədə inzibati ərazi dairəsi, 18 kənd inzibati ərazi dairəsi.

- 01 yanvar 2026-cı il tarixə əhalinin sayı 130501 nəfərdir. 1 kv.km düşən əhalinin sayı 89 nəfərdir. O cümlədən: şəhər və qəsəbə əhalisinin sayı 69741 (bunun 66614 nəfəri şəhər, 6597 nəfəri isə qəsəbə əhalisidir), kənd əhalisinin sayı 57290 nəfərdir. Kişilərin sayı 63554 nəfər, qadınların sayı 66947 nəfərdir. 2025-ci il ərzində doğulanların sayı 1271 nəfər, ölənlərin sayı 783 nəfərdir. Təbii artım 488 nəfərdir.

- 01 yanvar 2026-cı tarixə rayonun istifadəsində olan torpaq sahəsi 144210 hektardır. Bunun 62660 hektarı dövlət mülkiyyətinə, 46137 hektarı bələdiyyə mülkiyyətinə, 35413 hektarı isə xüsusi mülkiyyətə aiddir. Ümumi torpaq sahəsinin 99767,0 hektarı kənd təsərrüfatı təyinatlı torpaqlar, 44443 hektarı isə yaşayış, sənaye, xüsusi, meşə fondu, su fondu və ehtiyat fondu torpaqlarıdır.

- Əmək qabiliyyətli yaşadək əhalinin sayı 30537 nəfər, əmək qabiliyyətli yaşda əhalinin sayı 87175 nəfər, əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 12789 nəfərdir.

- Məşğul əhalinin sayı 57492 nəfər, muzdla işləyənlərin sayı 12355 nəfərdir.

- İqtisadi fəal əhalinin sayı 60879 nəfər, işsiz əhalinin sayı 3387 nəfərdir.

- 01 yanvar 2026-cı il tarixə rayon üzrə məşğulluq səviyyəsi 94,5 faiz, işsizlik səviyyəsi 5,5 faizdir.

- Rayon üzrə 2025-ci ildə pensiyaçıların sayı 12150 nəfər olmuşdur. Bundan 7378 nəfər yaşa görə, 3153 nəfər əliliyə görə və 1619 nəfər isə ailə başçısını itirməyə görə pensiya alanlardır. Rayon üzrə Ünvanlı dövlət sosial yardım alanların sayı 729 nəfərdir.

## ÜMUMDAXİLİ MƏHSUL İSTEHSALI

- 01 yanvar 2026-cı il vəziyyətinə ümumdaxili məhsulun həcmi 587,2 milyon manat olmuşdur. Bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 62 milyon 586 manat və yaxud 11,9 faiz çoxdur.

- 2025-ci ildə rayon iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsulun həcmi əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 43,2 milyon manat və ya 15,8 faiz artaraq 315,8 milyon manat, xidmət üzrə isə 19,3 milyon manat və ya 7,7 faiz artaraq 271,4 milyon manat olmuşdur.

- Ümumdaxili məhsulun 37,0 milyon manatını sənaye, 188,6 milyon manatını kənd təsərrüfatı, 90,3 milyon manatını tikinti, 178,9 milyon manatını ticarət, 13,4 milyon manatını nəqliyyat, 4,8 milyon manatını rabitə, digər xidmətlər isə 74,2 milyon manatını təşkil etmişdir.




- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə (adambaşına) hər nəfərə 4499,8 manat ümumdaxili məhsul istehsal olunmuşdur.

## ƏHALİNİN PUL GƏLİRLƏRİ

- Orta aylıq əmək haqqı 686,3 manat olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 11,5 faiz və ya 71,2 manat artmışdır.

## BÜDCƏ, MALİYƏ, BANK, SOSİAL MÜDAFİƏ VƏ MƏŞĞULLUQ SAHƏSİ ÜZRƏ

- 2025-ci il ərzində rayonun büdcə gəlirinin 7 milyon 458 min manat olacağı proqnozladırılmış, faktiki büdcə gəliri isə 8 milyon 418 min 721 manat təşkil etmiş, büdcə gəliri proqnozlaşdırılmış məbləğdən 12,9 faiz çox olmuşdur. Büdcə xərclərinin 7 milyon 777 min 90 manat olacağı proqnozlaşdırılmış, faktiki büdcə xərcləri isə 7 milyon 442 min 529 manat təşkil etmişdir. Bu da proqnozlaşdırılmış məbləğin 95,7 faizini təşkil etmişdir.

- Rayonda 4 bank filialı fəaliyyət göstərir.

- 2025-ci ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 158 sahibkara 4 milyon 438 min manat məbləğində güzəştli kredit verilmişdir.

## TİCARƏT VƏ XİDMƏT SAHƏSİ ÜZRƏ

- 01 yanvar 2026-cı il tarixə olan vəziyyətinə ticarət dövriyyəsi və pullu xidmətlərinin ümumi həcmi 178,9 milyon manat olmuşdur. Bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlə 5,2 faiz və ya 8,8 milyon manat artmışdır.

- 01 yanvar 2026-cı il tarixə Yevlax rayonunun ərazisində 10 ədəd ticarət və xidmət obyekti tikilib istifadəyə verilmişdir.

- Yeni tikilən ticarət və xidmət obyektləri müasir üslubda tikilərək şəhərin ümumi görkəminə uyğunlaşdırılmışdır. Hazırda rayonda 1000-dən çox ticarət, iaşə və xidmət obyekti əhaliyə müxtəlif xidmətlər göstərir.

## NƏQLİYYAT SAHƏSİ

- 01 yanvar 2026-cı il tarixə olan vəziyyətinə rayonda fəaliyyət göstərən nəqliyyat müəssisələri üzrə göstərilən xidmətdən əldə olunan gəlirin həcmi (fiziki şəxslər də daxil olmaqla) 13,5 milyon manat olmuşdur ki, bu da əvvəlki il ilə müqayisədə 48,4 faiz və ya 4,4 milyon manat çox təşkil etmişdir.

- 01 yanvar 2026-cı il tarixə olan vəziyyətinə rayon üzrə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 1831 min ton yük daşınmışdır ki, bu da ötən il ilə müqayisədə 5,8 faiz çoxdur. Yük dövriyyəsi ötən il ilə müqayisədə 7,0 faiz artaraq 146,7 mln ton/km təşkil etmişdir.

- 01 yanvar 2026-cı il tarixə olan vəziyyətinə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 25234 min sərnişin daşınmışdır. Sərnişin dövriyyəsi ötən il ilə müqayisədə 1522 nəfər və ya 6,4 faiz artmışdır.

- Hazırda hər 1000 nəfərə düşən avtomobillərin sayı 114 ədəd, hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin sayı isə 54 ədəddir. Əvvəlki illə müqayisədə bu göstərici müvafiq olaraq 0,9 faiz və 1,9 faiz çox olmuşdır.

## AQRAR SAHƏ ÜZRƏ

- Hesabat dövründə ümumilikdə 188,6 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 21,5 milyon manat artıq və ya 12,8 faiz çox olmuşdur.

- 2025-ci ilin məhsulu üçün 2024-cü ildə 4425,7 hektar buğda, 5926,4 hektar arpa əkilmişdir. Buğda məhsulu 16730,3 ton olmaqla 37,8 sentner, arpa məhsulu 18667,0 ton olmaqla məhsuldarlıq 31,5 sentner olmuşdur. Keçən il ilə müqayisədə buğda istehsalı 0,6 sentner, arpa istehsalı isə 1,2 sentner artmışdır. 2025-ci ildə 2026-cı ilin məhsulu üçün 10777 hektar taxıl əkini aparılmışdır. Bunun da 4226,5 hektarı buğda, 6550,5 hektarı arpa bitkisidir.

- 2025-ci ildə 58 kümçü tərəfindən 3870,5 kq barama məhsulu tədarük olunmuşdur.

- Bundan əlavə 2025-ci ildə 1000 hektar günəbxan, 146 hektar çəltik və 16620 hektar yonca otu bitkiləri əkilmişdir. Əkin sahələrindən 2700 ton günəbaxan məhsulu tədarük edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 23,4 ton artıq istehsal edilmişdir. Əkin sahələrindən 458,4 ton çəltik məhsulu tədarük edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 76,5 ton çox istehsal edilmişdir. Yonca bitkisi isə keçən ilə nisbətən 17025 ton artıq istehsal edilmiş və 257662 ton olmuşdur.

- Bu ilin pambıq mövsümü üçün Yevlax rayonunda 3301,1 hektar pambıq bitkisinin əkilmişdir. 285 fermerlə müqavilə bağlamışdır. Bu günə kimi əkin sahələrindən 11827,0 ton pambıq məhsulu tədarük edilmişdir. Məhsuldarlıq isə 35,82 sentner olmuşdur.

- 2025-ci ildə iribuynuzlu mal-qaranın baş sayı 79566 olmuşdur. Bundan 33472 başı ana maldır. 2024-cü ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın sayı 235 baş artmışdır.

- 2024-cü ilin müvafiq dövrünə nisbətən 2025-ci il tarixə xırda buynuzlu mal-qaranın sayı 502 baş artaraq 185713 baş olmuşdur.

- 2024-cü ilin müvafiq dövrünə nisbətən 2025-ci ildə quşların sayı 703 baş artaraq 458147 baş olmuşdur.

- 2025-ci ildə 9473,4 ton ət, 38442,4 ton süd, 19446 min ədəd yumurta ishehsal olunmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən ət 51,3 ton, süd 107 ton artıq istehsal edilmiş, yumurta istehsalı 129 min ədəd çox olmuşdur.

- 2025-ci il ərzində Yevlax rayon Heyvan sağlamlığı və Baytarlıq Xidmətləri idarəsi tərəfindən 43732 baş iribuynuzlu, 74010 baş xırdabuynuzlu, 1102 baş təkdırnaqlı heyvanda qarayara xəstəliyinə qarşı, bununla yanaşı 112945 baş iribuynuzlu, 169633 baş xırdabuynuzlu heyvanda dabaq xəstəliyinə qarşı peyvəndləmə işləri görülmüşdür

- ❖ Rayonun Aran qəsəbəsində 2807,0 hektar ərazidə Yevlax Pilot Aqroparkı yaradılmışdır. 23 iyun 2025-ci il tarixdə ölkə rəhbəri Cənab İlham Əliyev Yevlaxa səfəri çərçivəsində Yevlax Pilot Aqroparkın açılışını etmişdir. Aqroparkda 110 min kubmetirlik su anbarı inşa olunaraq istifadəyə verilmişdir. Aqroparkda 2362 hektar sahə üzrə 35 sahibkarlıq subyektinə rezidentlik şəhadətnaməsi təqdim edilmişdir. İndiyədək 24 rezident tərəfindən 1647 hektar ərazidə əkin işləri aparılıb. Bunun 600 hektarı intensiv meyvə bağları, 10 hektarı tingçilik, 1037 birillik əkinlər sahəsidir. Rezidentlər tərəfindən Aqroparkında ümumilikdə 58,3 milyon manatadək özəl investisiya qoyulmuş, 160 daimi və 519 mövsümi iş yerləri yaradılmışdır.

- ❖ Yevlax Pilot Aqroparkın ərazisində 129 hektar sahədə sənaye zonası yaradılmışdır. Hazırda sənaye zonasında illik istehsal gücü 16,5 milyon ədəd yumurta istehsalı üçün 2 ədəd quşçuluq kompleksi istifadəyə verilib.

- ❖ Bununla yanaşı sənaye zonasında Türkiyənin "Bayburt" şirkəti ilə əməkdaşlıq çərçivəsində 3000 başlıq iribuynuzlu heyvandarlıq kompleksi üçün layihələndirmə işləri yekunlaşmışdır. Hazırda tikinti işlərinə hazırlıq çərçivəsində torpaq sahəsində hamarlama işləri həyata keçirilir.

- ❖ Eyni zamanda sənaye zonasının 34,3 hektarında emal müəssisəsinin yaradılması işlərinə hazırlıq aparılır.

- ❖ Yevlax Pilot Aqroparkın ərazisində Azərbaycan-Özbəkistan tərəfdaşlığı çərçivəsində baramaçılığın inkişafında dayanıqlı yem bazasının təmin edilməsinə töhfə vermək məqsədilə "Azting" MMC-yə rezident statusu verilib. Rezident tərəfindən ümumilikdə 19,98 hektar ərazidə investisiya həcmi 170 min manat olan tingçilik təsərrüfatı yaradılacaq və 5 nəfər daimi, 50 nəfər isə mövsümi işlə təmin ediləcəkdir.

- ❖ Rayon ərazisində fəaliyyət göstərən "Badam Aqro" MMC tərəfindən 154,4 hektar meyvə bağı salınması nəzərdə tutulmuşdur. Hazırda 31 hektar nar və 54 hektar badam bağı salınmışdır. Bundan əlavə MMC tərəfindən hər il 85 hektar taxıl bitkisi əkilib becərilir. Hazırda MMC tərəfindən 21 nəfər daimi işlə təmin edilmişdir. Məhsul yığımı dövrü ərzində hər gün 20 nəfərdən çox yerli sakin sahələrdə aparılan işlərə cəlb edilmişdir.

- ❖ Yevlax rayonunun Aran qəsəbəsi ərazisində 2000 hektar torpaq sahəsində "Azərşəkər" MMC fəaliyyət göstərir. Azərşəkər" MMC-nin icarəsində olan 2000 ha əkin sahəsinin suvarılması üçün müasir suvarma sistemi quraşdırılmış, Qarabağ Suvarma Kanalından 17 km təzyiqli su xətti çəkilmişdir. "Azərşəkər" MMC tərəfindən hər il 770 hektar taxıl və 220 hektara yaxın şəkər çuğunduru bitkisi əkilir.

## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİNDƏ

- ❖ Şəhər ərazisində qəzalı vəziyyətdə olan 16 ədəd çoxmənzilli yaşayış və 1 ədəd 5 mərtəbəli yataqxana binaları mövcuddur. Həmin 208 mənzildən ibarət qəzalı yaşayış binalarında 207 ailə olmaqla 770 nəfər şəhər sakini, qəzalı yataqxana binasında isə 114 ailə olmaqla 428 nəfər yaşayır.

- ❖ Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Yevlax şəhəri ərazisində qəzalı vəziyyətdə olan ictimai yaşayış binalarında yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə tədbirlər görülür. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 19.03.2025-ci il tarixli 179s nömrəli Sərəncamına əsasən XIX əsrin sonu, XX əsrin əvvələrində inşa edilmiş, uzun illərdi qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Yevlax şəhərində 81 mənzilli 3 binanın tikilməsi üçün Pişəvəri 4 və 8 saylı binalar sökülmüş, tikinti işlərinə yaxın vaxtlarda başlanılması planlaşdırılır.

- Mənzil fondunun yaxşılaşdırılması istiqamətində şəhərin Qanboy Quliyev küçəsində yerləşən 1,2,3,4 saylı çoxmənzilli yaşayış binalarında təmir işləri davam etdirilir.

- Sahəsi 60264 kv.metr olmaqla şəhərin 11 küçəsində əsaslı yol tikintisi işləri başa çatdırılmışdır. Şəhərin Abbas Səhhət küçəsində piyadalar üçün nəzərdə tutulmuş səkiyə sahəsi 900 kv.metr olmaqla tamet daşları vurulmuşdur.

- Şəhərin Heydər Əliyev prospektində yerləşən Beynəlxalq Bankın binasından Şahmat məktəbinə kimi,Heydər Əliyev prospektində yerləşən 3 saylı uşaq bağçasının qarşısı,Heydər Əliyev prospektində yerləşən 51 və 45 saylı binaların qarşısı,Heydər Əliyev prospektində yerləşən 45 saylı binadan Yeni Azərbaycan Partiyasının binasına kimi,Heydər Əliyev prospektində yerləşən 40 saylı binanın qarşısı,Heydər Əliyev prospekti ilə Qasımbəy Zakir küçəsinin kəsişməsindən, Heydər Əliyev prospekti ilə M.Ə.Sabir küçəsinin kəsişməsinədək olan ərazi, Heydər Əliyev prospekti ilə Səməd Vurğun küçəsinin kəsişməsindən, Heydər Əliyev prospekti ilə Azərbaycan küçəsinin kəsişməsinədək olan ərazi, Bakı prospektində yerləşən "Azpetrol" YDM-nın qarşısında olan səki, Heydər Əliyev prospekti ilə Nizami Gəncəvi prospektinin kəsişməsindən 5 sayli məktəbə kimi, Heydər Əliyev prospekti ilə Nizami Gəncəvi prospektinin kəsişməsindən Yeni Yevlax küçəsinə kimi, Heydər Əliyev prospekti ilə Nizami Gəncəvi prospektinin kəsişməsindən Fizuli küçəsinə kimi, Nizami prospekti ilə Fizuli küçələrinin kəsişməsindən yolun sağ hissəsindən qala kompleksinə kimi, Nizami prospekti ilə Fizuli küçələrinin kəsişməsindən yolun sol hissəsindən qala kompleksinə kimi, Heydər Əliyev prospektində yerləşən Everest ticarət mərkəzinin qarşısından Səməd Vurğun küçəsinə kimi, olan ərazilərə ümumilikdə 11517 kv.metr tamet piltə daşları düzülmüş, 68 işıq dirəyi quraşdırılmış, 52 oturacaq və 41 zibil tullantıları üçün nəzərdə tutulmuş qablar qoyulmuşdur. Nizami prospektində qala divarından başlayaraq köhnə körpüyədək youn sol və sağ hissəsindəki istidan divarları təmir olunmuşdur.

- Hal-hazırda şəhərin Rəşad Budaqov küçəsi 1 ünvanında "MİDA" MMC tərəfindən 1.9 ha torpaq sahəsində 329 mənzilli, 7 mərtəbəli olmaqla 3 yaşayış binasının tikinti işləri başa çatdırılaraq mənzillər satışa çıxarılmışdır. 3 yaşayış binasının tikinti işləri davam etməkdədir. Yaşayış binalarının ümumi sahəsi 26610.75 kv.metr, ticarət və qeyri yaşayış sahəsi 1077 kv.metr, yerüstü avtomobil dayanacaqlarının sahəsi 1636.88 kv.metr, yaşıllıq sahəsi 4967.26 kv.metr olmaqla inşa edilir. Tikinti işlərinin 2026-ci ilin birinci yarım ilinədək yekunlaşaraq binaların istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

- Gənclər və İdman Nazirliyinin sifarişi əsasında Kür çayının Yevlax rayonundan keçən hissəsinin sağ sahilində, ərazisi 5,3 hektar olan Yevlax Olimpiya İdman Kompleksinin inşası başa çatdırılmış və III MDB oyunlarında boks yarışları Yevlax Olimpiya İdman Kompleksində keçirilmişdir. Hazırda ölçüsü 105x68 metr olan 1226 yerlik futbol meydançası və əlavə olaraq iki ədəd məşq üçün nəzərdə tutulmuş mini futbol meydançalarının tikinti işləri davam etdirilir.

- Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi magistral avtomobil yolunun Yevlax şəhərindən keçən hissəsində uzunluğu 48, eni 7 metr olan yeraltı piyada keçidinin tikintisi başa çatdırılmış və əhalinin istifadəsinə verilmişdir.

- Cari ildə dövlət proqramına uyğun olaraq Elm və Təhsil Nazirliyi tərəfindən şəhərin Nizami pr 57 ünvanında yerləşən XX əsrin 30-cu illərində inşa olunmuş uyğunlaşdırılmış binada fəaliyyət göstərən, Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəb üçün 528 şagird yerlik yeni binanın tikintisi həyata keçirilir, hazırda binada son tamamlama işləri görülür.

- "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxsin Yevlax Regional Şöbəsi üçün rayonun Qaraoğlan kəndi ərzisindən ayrılmış 2,5 ha ərazidə tikinti işləri davam etdirilir.

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası ilə bağlı tədbirlər haqqında" 2019-cu il 13 noyabr tarixli Sərəncamına əsasən Yevlax şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində şəhərə 43,6 km olan yeni içməli su xətti çəkilmişdir. Şəhərin Füzuli küçəsində 405 metr, Pişəvəri küçəsində isə 230 metr uzunluğunda olan yeni fekal kanalizasiya xətti çəkilmişdir. Su və kanalizasiya xətlərinin çəkilişi hazırda davam etdirilir.

- Kür çayının sağ sahilində yerləşən, tikintisi uzun illərdir dayanmış Yevlax City Hotel kompleksində təmir işlərinə başlanılmış, hazırda binada son tamamlanma işləri aparılır.

- Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi magistral avtomobil yolunun Yevlax rayonunun Aran qəsəbəsindən keçən hissəsində yerüstü piyada keçidinin tikintisi nəzərdə tutulmuş, hazırda sənədləşmə işləri aparılır.

- Şəhər ərazisində sahibkarlığın inkişaf etdirilməsi məqsədilə mütəmadi olaraq sahibkarlarla görüşlər keçirilmiş həmçinin onlara aid obyektlərin müasir tələblərə uyğun reklam lövhələri ilə təchiz edilməsi istiqamətində tapşırıqlar və tövsiyələr verilmişdir.

- Ağciyər Xəstəlikləri Mərkəzi publik hüquqi şəxsin Yevlax Regional Xəstəxanası təmir olunmuşdur.

- Sərnişinlərin rahatlığı təmin edilməsi məqsədilə Yevlax Dəmiryol Vağzalında təmir işləri aparılmış, müasir tələblərə uyğun VİP gözləmə zalı yaradılmışdır.

- birpencere.arxkom.gov.az elektron sisteminə məlumatlandırma icraatı ilə bağlı 30, icazə icraatı ilə bağlı 10 müraciət daxil olmuşdur.

- "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2023-cü tarixli 2181 nömrəli Fərmanının icrası ilə əlaqədar yaradılmış qyoii.ttnda.az elektron sisteminə 131 qeyri-yaşayış obyektinə dair məlumat yerləşdirilmiş,onlardan 96 qeyri-yaşayış obyektinin istismara icazə sənədi verilmiş, 35 qeyri-yaşayış obyektinin sənədlərində çatışmazlıq olduğu üçün təkrar icraata qaytarılmışdır. O, cümlədən 2025-ci il ərzində qyoii.ttnda.az elektron sisteminə 73 sənəd daxil olmuş, onlardan 43 qeyri-yaşayış obyektinin istismarına icazə 30 qeyri-yaşayış obyektinə isə mənfi rəy verilmişdir.

## İNFRASTRUKTURUN YAXŞILAŞDIRILMASI

### İçməli su təminatı

- 2025-ci ildə əhalinin içməli su ilə təmin olunması diqqət mərkəzində olmuş, artezian və subartezianların, kanalizasiya nasos stansiyalarının istismarı nəzarətdə saxlanılmışdır. Beləliklə əhalinin içməli su ilə təminatında və çirkab, yağış sularının şəhərdən kənarlaşdırılmasında problemlər operativ surətdə aradan qaldırılmışdır.

- Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası ilə bağlı Kür çayının kənarında inşa edilmiş İçməli Sutəmizləyici Qurğular Kompleksinin 23 iyun 2025-ci il tarixdə ölkə rəhbəri Möhtərəm Cənab Prezident İlham Əliyev tərəfindən açılışı olmuşdur. Layihə çərçivəsində şəhərin müxtəlif ərazilərinə ümumi uzunluğu 43,6 km olan yeni içməli su xətti çəkilmiş, 5050 abonentə yeni su sayğacı quraşdırılmışdır. Hazırda işlər davam etdirilir.

- Yevlax Su Meliorasiya Sistemlərinin İstismarı idarəsi tərəfindən 2025-ci ildə qeyri-əhali üzrə istehlakçıların su ilə təminatı üzrə 153 min 799 manat, yəni 99,5 faiz ödəniş olmuşdur. Əhalinin içməli su təminatı üzrə isə 838 min 439 manat ödəniş olmuşdur ki, bu da 98,1 faiz təşkil edir.

**Şəhərin kanalizasiya sisteminin istismarı**

- Şəhərin kanalizasiya xətlərinin istismarı, baxış quyularının, yağış və çirkab suların axıdılması üçün arxların təmizlənməsi daim diqqətdə saxlanılmışdır.

- 2025-ci il ərzində şəhərin Füzuli küçəsində 1000 mm diametrli 412 metr uzunluğunda, Pişəvəri küçəsində 200 mm diametrli 230 metr uzunluğunda, şəhər 3 saylı tam orta məktəbin həyətində 200 mm diametrli 120 metr uzunluğunda yeni kanalizasiya xətti çəkilərək istismara verilmişdir.

- Heydər Əliyev prospekti 44 ünvanında yerləşən yaşayış binasının kanalizasiya xətti əsaslı təmir edilərək 150 mm diametrli 6 metr uzunluğunda yeni kanalizasiya xətti çəkilmişdir. Qanboy Quliyev küçəsi 2b ünvanında yerləşən yaşayış binasının zirzəmisində kanalizasiya xəttləri tamamilə yenilənmiş, 110 mm diametrli 20 metr uzunluğunda yeni kanalizasiya xəttləri çəkilmişdir. Məhəmməd Füzuli küçəsində 6 ədəd, Abbas Səhhət küçəsində 1 ədəd kanalizasiya baxış quyuları əsaslı təmir edilmişdir.

- Bakı prospektində 300 mm diametrli təzyiqli kanalizasiya xəttinin 5 metrlik hissəsi dəyişdirilmişdir. 1200 mm diametrli kollektorun 2 metrlik hissəsi əsaslı təmir edilmişdir. Qarxunlu Əşrəf bəy küçəsində 300 mm diametrli kanalizasiya xəttində təmir işləri aparılmışdır.

- 1, 2, 3 saylı kanalizasiya nasos stansiyalarında 5 ədəd nasos, 1 ədəd elektrik mühərriki və 4 ədəd siyirtmə əsaslı təmir edilmişdir. 1 saylı kanalizasiya nasos stansiyasında 150 kvt elektrik generatoru quraşdırılmışdır.

**Elektrik enerjisi təminatı**

- Şəhərdə və rayon ərazisində əhalinin və istehsalat sahələrinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması həyata keçirilmişdir.

- 2025-ci ildə Yevlaxın, həmçinin regionun enerji təchizatında mühüm əlamətdar hadisə olmuşdur. Belə ki, 23 iyun 2025-ci ildə ölkə rəhbəri Cənab İlham Əliyev Yevlaxa səfəri çərçivəsində “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Yevlax” qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin, Aran qəsəbəsində yerləşən “Azərişıq” ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışlarını etmişdir.

- Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında rayonun 21 kəndinin elektrik təsərrüfatının yenidən qurulmasına dair layihə smeta sənədləri hazırlanmışdır.Rayonun Salahlı, Nərimanabad və Kövər kəndlərində 150 ədəd 0,4 kilovoltluq metal dayaqlar quraşdırılmış, işlər davam etdirilir.

- Eyni zamanda şəbəkənin balansında olan 10/0,4 kilovoltluq 26 ədəd müxtəlif güclü kompleks transformator məntəqələrinin ətrafı çəpərlənmiş, işlər ardıcıl olaraq davam etdirilir. Ümumi uzunluğu 1,5 kilometr olan 10 kilovoltluq elektrik verilişi xətlərində 35 ədəd istismara yararsız dayaqlar yenisi ilə əvəz olunmuş, Qoyunbinəsi və Havarlı kəndlərində əhalinin elektrik enerjisinə olan tələbatının yaxşılaşdırılması üçün yeni güc mərkəzləri yaradılmışdır. Aran qəsəbəsində 4 ədəd, Xanabad kəndində 15 ədəd, Ərəş kəndində 8 ədəd, Ərəbbəsrə kəndində 6 ədəd, Qaraməmmədli kəndində 3 ədəd və Yevlax şəhərində 5 ədəd olmaqla ümumilikdə 41 ədəd istismara yararsız 0,4 kilovoltluq dayaqlar dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. 110/35/10 kilovoltluq Yevlax yarımstansiyasından çıxan 10 kilovoltluq “Kür” və “Vergilər” hava xəttinin yeni tikilmiş Olimpiya İdman Kompleksinin yanından keçən hissəsində hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz olunmuşdur.

- Şəbəkənin balansında olan 35/10 kilovoltluq Yuxarı Bucaq yarımstansiyasının yenidən qurulması işləri aparılır.

- 2025-ci ildə şəbəkə üzrə istehlak olunmuş elektrik enerjisinin dəyərinin 10,5 milyon manatı, yəni 94,2 faizi ödənilmişdir.

- Əhali qrupu üzrə abonentlər tərəfindən debitor borclarda nəzərə alınmaqla 5,6 milyon manatlıq elektrik enerjisinin dəyəri ödənilmişdir ki, bu da 101,1 faiz təşkil edir.

**<u>Təbii qaz təminatı</u>**

- Yevlax şəhər və kənd yaşayış məntəqələri 100 faiz qazlaşdırılmışdır.
- 2025-ci ildə ümumilikdə 9 milyon 600 min 491 manat dəyərində 60 milyon 150 min 038 kub qaz qəbul olunmuş, bundan 51 milyon 416 min 021 kub satışa yönəlmiş 8716242 kub (14,96%) itki yaranmışdır.

- Əhali üzrə 2 milyon 705 min 519 manat dəyərində 16 milyon 533 min 796 kub qaz satışa yönəlmiş, 2 milyon 554 min 035 manat (94,40%) dəyəri ödənilmişdir.

- Qeyri əhali üzrə 3 milyon 013 min 467 manat dəyərində 12 milyon 214 min 998 kub qaz satışa yönəlmiş, 2 milyon 896 min 228 manat (96,11%) dəyəri ödənilmişdir.

**<u>Poçt və Rabitə xidmətləri</u>**

- Yevlax rayonu ərazisində GPON layihəsi üzrə yeni telefon və internet sisteminin quraşdırılması işləri başa çatdırılmış, əhali yeni rabitə sistemi ilə tam təmin edilmişdir.

- 2025-ci ildə Yevlax rayonu üzrə abonentlərə 509 min manatlıq poçt, 4,9 milyon manatlıq rabitə xidmətləri göstərilmişdir.

## TƏHSİL SAHƏSİ ÜZRƏ

- Yevlax rayonunda 55 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdən 42-i tam orta, 8-i ümumi orta, 5-i ibtidai məktəbdir.

- 2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrində şagirdlərin sayı 18107 nəfər təşkil edir ki, onlardan ibtidai təhsil səviyyəsi üzrə 5657 nəfər, ümumi orta təhsil səviyyəsi üzrə 8053 nəfər, tam orta təhsil səviyyəsi üzrə 2766 nəfərdir. Rayon üzrə müəllimlərin sayı 1631 nəfərdir.

- Dövlət məktəbəqədər təhsil müəssisələrinin sayı 26, uşaqların sayı 1228 nəfərdir.

- Peşə məktəbi 1, təhsil alanların sayı isə 251 nəfərdir.

- 2024-cü ildən S.Vurğun adına şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbin yeni binasının tikintisinə başlanılmış, hazırda tikinti işləri davam etdirilir.

- 2024-2025-ci tədris ilində IX siniflər üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilmiş “Buraxılış imtahanı”nda 1598 nəfər şagird iştirak etmişdir.

- 2024-2025-ci tədris ilində XI sinifləri 1033 şagird bitirmiş, 622(60,2%) nəfəri Respublikanın müxtəlif ali məktəblərinə sənəd vermiş, 354(34,2%) nəfər ali məktəblərə qəbul olmuşdur. Onlardan 15 nəfəri 600-dən yuxarı, 46 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Rayon üzrə ən yüksək nəticəni Ş.Qurbanov adına şəhər 8 nömrəli tam orta ümumtəhsil məktəbin məzunu Məcnunova Zinyət Həsən qızı 668,6 balla Azərbaycan Tibb Universiteti,Tibb fakültəsi-müalicə işi ixtisasına qəbul olunmuşdur.

- ❖ 2024-2025-ci tədris ilində rayon üzrə Respublika Fənn Olimpiyadasının final turunda iştirak edən 5 nəfər şagirddən 3 nəfəri uğur əldə edərək 2 gümüş və 1 bürünc medala layiq görülmüşlər.

- ❖ 2024-2025-ci tədris ilində rayon üzrə Respublika fənn müsabiqəsində 4 nəfər şagird qalib olaraq bürünc medala layiq görülmüşlər.

- ❖ 2024-2025-ci tədris ilində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə bağlı hər il ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında təşkil edilmiş "Ən yaxşı təqdimat" müsabiqəsinin final mərhələsində S.Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbin X sinif şagirdi Kərimli Rəhman Elmar oğlu uğur qazanaraq II yerin qalibi olmuşdur.

- ❖ 2025-ci ilin yanvar ayından şəhər 3 və 5 nömrəli, Kövər kənd və Aran qəsəbə 2 nömrəli körpələr evi-uşaq bağçalarında cari təmir işlərinə başlanılmış, Aran qəsəbə 2 nömrəli və Kövər kənd körpələr evi uşaq bağçalarında işlər yekunlaşmış digər bağçalarda isə təmir işləri davam etdirilir.

- ❖ 2025-ci ildə şəhər 6 və 9 nömrəli, Havarlı və Gülövşə kənd tam orta, Ərəbbəsrə kənd və Duzdağ qəsəbə ümumi orta ümumtəhsil məktəblərində cari təmir işləri aparılmışdır.

- ❖ 2024-2025-ci tədris ilində Havarlı, Gülövşə, Hürüuşağı kənd tam orta ümumtəhsil müəssisələrində icma əsaslı məktəbəqədər qruplar fəaliyyətə başlamış və bunlada məktəbəqədər qrupların sayı 19 olmuşdur.

## SƏHİYYƏ SAHƏSİ ÜZRƏ

- ❖ 2025-ci il ərzində 123 həkim, 258 orta tibb işçisi çalışdığı 1 xəstəxana 1 ambulator poliklinika, 7 Ailə Sağlamlıq Mərkəzi fəaliyyət göstərir və əhalinin 10 min nəfərinə orta hesabla 9,5 həkim, 19,8 orta tibb işçisi düşür.

- ❖ İl ərzində Yevlax Rayon üzrə ambulator tibb müəssisələrinə ümumi olaraq 473945 müraciət olmuşdur.

- ❖ 2025-ci il ərzində "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində 690 cərrahiyyə əməliyyatı baş tutmuşdur.

- ❖ 2025-ci il ərzində "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində "Tibbi Göndərişlərə Nəzarət Komissiyası"nın rəyi əsasında özəl xəstəxanalara 2091 göndəriş, Dövlət xəstəxanalarına 2966 göndəriş verilmişdir.

- ❖ 2025-ci il ərzində "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində 405 uşaq doğulmuş, ana ölümü halı baş verməmişdir.

- ❖ "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsinə 2025-ci il ərzində 3879 xəstə qəbul olunmuşdur. Xəstəxanada stasionarda ölənlərin sayı 61, evdə ölənlərin sayı 570 nəfər olmuşdur.

- ❖ Hazırda "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin struktur tərkibinə daxil olan 7 (yeddi) Ailə Sağlamlıq Mərkəzi və 2 (iki) Tibb Məntəqəsi (Kövər və Yuxarı Bucaq Tibb Məntəqələri 2024-cü ildə fəaliyyətə başlamışdır) fəaliyyət göstərir. Tanrıqulular Tibb Məntəqəsi əsaslı təmir olunmuşdur açılışı 2026-cı ildə nəzərdə tutulmuşdur.

- 2025-ci il ərzində Ağciyər Xəstəlikləri Mərkəzi publik hüquqi şəxsin Yevlax Regional Xəstəxanası təmir olunmuşdur.

## MƏDƏNİYYƏT SAHƏSİ ÜZRƏ

- 2025-ci ildə Yevlax rayonunda 1 Heydər Əliyev Mərkəzi, 1 Tarix-Diyarşünaslıq Muzeyi, 6 uşaq musiqi məktəbi, 27 kitabxana və 24 klub tipli müəssisə fəaliyyət göstərmişdir.

- 2025-ci ildə Yevlax şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi üzrə ümumi kitab fondu 167322 nüsxə təşkil etmiş, 16935 oxucuya 170142 kitab verilişi həyata keçirilmişdir.

- 1963-cü ildə inşa edilmiş, sonuncu dəfə 2006-cı ildə təmir olunmuş Yevlax Heydər Əliyev Sarayında 2024-cü ildən başlayaraq yenidənqurma işləri aparılmış və əsaslı şəkildə təmir olunmuşdur.

## GƏNCLƏR VƏ İDMAN SAHƏSİ ÜZRƏ

- Yola saldığımız 2025-ci il Yevlaxın tarixinə daha bir ilk yazıldı. Belə ki, rayonumuzda dünya səviyyəli idman yarış olan III MDB oyunları keçirildi. Ona görə ilk yarış idi ki, indiyədək Yevlaxda heç vaxt bu səviyyədə yarış təşkil olunmamışdı. MDB oyunları çərçivəsində boks yarışlarının şəhərimizdə keçirilməsinin özü də Yevlaxın mühüm strateji rayon olmasını  göstərir.Müəyyən edilmiş digər bölgələrdə olduğu kimi Yevlaxda da bu yarış yüksək səviyyədə təşkil olundu və idmanın boks növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində uğurla keçirildi.

- 2025-ci il ərzində Yevlax rayonu üzrə gənclər və idman sektoru tərəfindən gənclər sahəsi üzrə 27 tədbir, idman sahəsi üzrə isə 23 tədbir təşkil olunmuşdur.

- 2025-ci il ərzində cüdo idman növü üzrə idmançılarımız ölkə birinciliklərində Pərvanə Abdullayeva I yer, Zəhra Mədətzadə və Valeh Sadıqzadə II yer qazanmışlar.

- 2025-ci il ərzində ağırlıqqaldırma idman növü üzrə idmançımız Murad Həsənli ölkə birinciliyində I yer qazanmışdır.

- Yunan-Roma güləşi üzrə idmançılarımız Tamara Rəcəbova Respublika birinciliyində III yer, Əfşan Cəfərov ölkə birinciliyində III yer, Xudayar Kərimov ölkə birinciliyində II yerə layiq görülmüşdür.

## İCTİMAİ TƏŞKİLATLAR VƏ SİYASİ PARTİYALARLA İŞ SAHƏSİ ÜZRƏ

- Azərbaycan Respublikası Prezidentinin xalqımızın xoşbəxt rifahı naminə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin yerlərdə təbliği, ölkə Prezidentinin nitqlərinin öyrənilməsi, fərman və sərəncamlarından irəli gələn vəzifələri, ölkənin ictimai-siyasi həyatında baş verən prosesləri ictimaiyyətin bütün təbəqələrinə daha dərindən və ardıcıl şəkildə çatdırılması məqsədilə Şəhər İcra Hakimiyyətinin rəsmi internet saytında və sosial şəbəkə hesablarında müntəzəm olaraq məlumatlar paylaşılır.

- 2025-ci il ərzində rayon ərazisində ictimai-siyasi vəziyyət sabit olmuşdur. Rayonda 17 İctimai Birliyin nümayəndəliyi və 6 siyasi partiya vardır ki, onlardan 4-ü ilə əlaqə vardır. Siyasi partiyalardan Yeni Azərbaycan Partiyasının Yevlax Rayon Təşkilatı özünün inzibati binasında fəaliyyət göstərir, üzvlərinin sayı 8911 nəfərdir.

- ❖ Rayon ərazisində dini duruma nəzarət “Dini etiqat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu”na müvafiq olaraq tənzimlənir. Hazırda Yevlax şəhərində, qəsəbə və kəndlərdə 22 məscid var ki, həmin məscidlərdən 16-sı fəaliyyət göstərir.

- ❖ Ötən müddət ərzində rayon ərazisində dini və milli zəmində heç bir münaqişə baş verməmişdir. Rayon ərazisində heç bir qeyri-islam dini icması, dini ayrı-seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur. Qeyri-hökumət təşkilatlarının və siyasi partiyaların dini məsələlərə müdaxilə halları müəyyən edilməmiş, xarici missioner təşkilatların və nümayəndələrinin fəaliyyəti müşahidə edilməmişdir.

## HÜQUQ MÜHAFİZƏ, QEYDİYYAT VƏ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ SAHƏSİNDƏ

- ❖ 2025-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, onun profilaktikası və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində bir sıra işlər görülmüş, bu məqsədlə kompleks əməli tədbirlər həyata keçirilmişdir.

- ❖ 2025-ci il ərzində Yevlax rayonu ərazisində 345 cinayət hadisəsi qeydə alınmış, həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 339 cinayət hadisəsinin açılması təmin olunmuş, 11 cinayət hadisəsi isə bağlı qalmışdır. 2025-ci il ərzində ümumi cinayətlərin açılması 96,9 % təmin edilmişdir.

- ❖ 2025-ci il ərzində 7 qəsdən adam öldürmə, 6 qəsdən sağlamlığa ağır zərər vurma qeydə alınmış, adam oğurluğu kimi cinayət faktı qeydə alınmamışdır.

- ❖ Narkomaniyaya qarşı mübarizə tədbirləri çərçivəsində 108 fakt aşkar edilmiş, 40 kq 306,4 qram narkotik vasitə dövriyyədən çıxarılmışdır.

- ❖ 2025-ci il ərzində 664 doğum faktı, 743 ölüm faktı qeydə alınmış, 111 nikah bağlanmış, 194 nikahın pozulması qeydə alınmışdır. Yevlax rayon qeydiyyat şöbəsi, Şəhər İcra Hakimiyyəti Başçısının sahə, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, eləcə də ağsaqqallar, ziyalılar tərəfindən boşanma hallarının azalması üçün yerlərdə əhali arasında, xüsusən gənc ailələrlə mütəmadi olaraq maarifləndirmə tədbirlərinə diqqət artırılmalıdır.

- ❖ 2025-ci il ərzində Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsi tərəfindən 625 nəfər gənc həqiqi hərbi xidmətə göndərilmişdir.

## ƏRAZİ İDARƏETMƏ VƏ BƏLƏDİYYƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ

Rayonda 1 şəhər, 3 qəsəbə, 46 kənd yaşayış məntəqəsi vardır. 21 inzibati ərazi dairəsi, 10 bələdiyyə fəaliyyət göstərir.

- ❖ 01 yanvar 2026-cı il tarixə rayonun əhalisi 130 min 445 nəfər təşkil etmişdir. İl ərzində əhalinin sayı 1030 nəfər artmışdır. Əhalinin keçən ilə nisbətən artımı əsasən doğuşların və rayona gələnlərin sayının artması hesabına olmuşdur.

- ❖ Qeyd etmək lazımdır ki, bəzi qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin və bələdiyyələrin fəaliyyəti tələb olunan səviyyədə deyildir. Bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına lazımi nəzarət təmin edilməmişdir. Torpaq mülkiyyətçiləri, istifadəçiləri ilə pambıq əkini aparılması üçün iş aparılmalıdır. Xüsusilə əkin yerlərindən başqa məqsədlər üçün istifadə olunması halları çoxdur. Əkin yerlərindən biçənək kimi istifadə olunması halları xüsusilə qeyd olunmalıdır. Bələdiyyələr tərəfindən vergi və rüsumların yığılması üçün lazımi iş aparılmır ki, bu da onların büdcəsinə mənfi təsir edir. Vətəndaşların problemlərinin öyrənilməsi və onların

müraciətlərinə baxılması işi həmişə lazımi səviyyədə olmur. Ona görə də bəzən xırda məsələlərlə əlaqədar vətəndaşlar Şəhər İcra Hakimiyyətinə və ya yuxarı orqanlara müraciət edirlər. Odur ki, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər və bələdiyyələr əhalini narahat edən problemlərilə ciddi məşğul olmalı və öz işlərində dönüş yaratmalıdırlar. Vətəndaş-məmur münasibətlərində hər bir vəzifəli şəxs diqqətli olmalıdır.

❖ Şəhər İcra Hakimiyyəti Başçısı aparatının Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin Ərazi-təşkilat məsələləri sektoru qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrlə, bələdiyyələrlə lazımi iş aparmalı, onların fəaliyyətinin daha da yaxşılaşdırılması üçün tələbkarlığı artırmalıdır.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ ÜZRƏ

❖ 2025-ci il ərzində Şəhər İcra Hakimiyyətində və tabe qurumlarda vətəndaşların qəbulu, onların təklifi, ərizə, şikayətlərinə baxılmasına diqqət daha da artırılmışdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tövsiyələrinə uyğun olaraq əhalinin yerlərdə qəbuluna xüsusi diqqət yetirilir.

❖ 2025-ci il ərzində rayonun yaşayış massivlərində keçirilmiş 43 səyyar qəbulda 283 nəfər, ŞİH-nin inzibati binasında keçirilən 50 qəbulda 766 vətəndaş qəbul edilərək dinlənilmişdir. Müraciət edən vətəndaşlardan 470 nəfəri Şəhər İcra Hakimiyyəti Başçısı tərəfindən qəbul edilərək dinlənilmişdir. Vətəndaş müraciətlərinin qeydiyyatının operativliyini təmin etmək üçün Şəhər İcra Hakimiyyətində “qaynar xətt” yaradılmışdır.

❖ 2025-ci il ərzində yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron sistemə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 144, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyindən 91, Milli Məclisdən 9, Nazirlər Kabinetindən 26, digər qurumlarından isə 66 müraciət olmaqla cəmi 336 müraciət daxil olmuşdur. Onlardan 63-ü kollektiv, 74-ü isə təkrar müraciətdir. Vətəndaşlardan birbaşa Şəhər İcra Hakimiyyətinə 943 müraciət daxil olmuşdur, o cümlədən, Şəhər İcra Hakimiyyətinin elektron poçt ünvanına 113, RSD vasitəsilə 270 müraciət daxil olmuşdur.

❖ Daxil olmuş müraciətlərin 671–i, yəni 52,46 faizi müsbət həll olunmuşdur.

❖ Bununla yanaşı vətəndaşların qanunauyğun olmayan, Şəhər İcra Hakimiyyətinin səlahiyyətləri xaricində olan məsələlərlə bağlı tələblərinə verilən cavablar onları qane etmədiyinə görə bəzi hallarda təkrar müraciətlər edilmişdir.

❖ Şəhər İcra Hakimiyyəti başçısı Aparatının bütün şöbələri, xüsusi ilə Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi ərizə və şikayətlərə, müraciətlərə vaxtında baxılmasını və qaldırılan məsələlərin ətraflı təhlil olunmasını təmin etmək üçün işini günün tələbləri səviyyəsində qurmağa çalışmalıdır.